**_Kəlbəcər–Laçın iqtisadi rayonuna daxil olan Qubadlı qərbdə Ermənistanla sərhəd olmaqla dağlıq əraziyə malikdir. İnzibati bölgəyə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi vahidi daxildir. Ən böyük kəndləri Xanlıq, Dondarlı, Dəmirçilər, Mahmudludur. Bu kəndlərin hər birində 200-250 təsərrüfat var idi. Rayon ərazisindən Həkəri və Bazarçay çayları keçir. Kifayət qədər iqtisadi potensiala malik olan rayon mineral resurslar, faydalı qazıntılarla da məşhurdur. Bütün bunlar rayonda turizmin müxtəlif sahələrinin inkişafı üçün geniş imkanlar açır._**

# Qubadlının zəngin turizm potensialı var

Bir neçə gün əvvəl Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva yenə Qubadlıya səfər etmişlər. Rayon ictimaiyyəti ilə görüş zamanı dövlət başçısı demişdir: "Qubadlı böyük potensiala malikdir, zəngin təbiəti, təbii sərvətləri var. Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın, bizim böyük sərvətimizdir. Çünki biz bu çaylardan məhrum idik. Həkəridən də, Bazarçaydan da, Bəsitçaydan da, Tərtər çayından da məhrum idik".

Qubadlının gözəl təbiəti, meşələri, dağları, sərin bulaqları göz oxşayır. Bura səfər edənlər Qubadlının gözəl təbiətindən ürəkdolusu danışırlar. Bu yerlər yaxın gələcəkdə turistlər üçün cazibədar olacaq.

28 il ərzində erməni vandalizmi nəticəsində burada bir çox turistik məkanlarımız viran edilib. Onlar tezliklə bərpa ediləcək. Cənab Prezident də bildirdi ki, biz Qubadlı rayonunun bütün kəndlərini yenidən quracağıq. Qubadlı şəhərinin baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim olunacaq. O cümlədən, Qubadlı ictimaiyyətinə təqdim olunacaqdır. Əlbəttə ki, bu baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Amma, eyni zamanda, artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır.

Qubadlıda turizmin inkişafı üçün kifayət qədər tarixi-mədəni obyekt var. XIX əsrə aid olan məşhur Hacı Bədəl körpüsü, 1867-ci ildə Bərgüşad çayının üzərində altı oval, üstü düz bir formada inşa edilən Laləzar körpüsü, Məmər kəndində XVIII əsrə aid tarixi məscid, Dondarlı və Dəmirçilər kəndlərindəki məscidlər, Azərbaycanın səkkizguşəli türbələri arasında unikal formaya malik Gürcülü türbəsi, Sarıbulaq, Paşa bulağı, Şirin bulaq, Məşhədi Allahverdi bulağı kimi müalicəvi bulaqları, VI və VII əsrlərə aid alban abidələri, Qubadlının simvolu hesab edilən qoç heykəllər və qəbir daşları, V əsrə aid Göy qala, Qalalı kimi qədim tikililər mövcuddur. Baxmayaraq ki, onların böyük bir qismi ermənilər tərəfindən dağıdılıb, tezliklə bərpa edilib, istifadəyə veriləcək.

XIX əsrə aid Hacı Bədəl körpüsü Dəmirçilər kəndində yerləşir. Yaz aylarında Ağa çayının güclü axınının körpünü dağıtmaması üçün tikili tağbənd formasında inşa edilib. Körpünün inşasında tuf daşdan (xüsusi bəzək vurmaqla), əhəng və yumurta sarısından istifadə olunub.

Məmər kəndindəki XVIII əsrə aid edilən tarixi memarlıq abidəsi sovet dövründə anbara çevrilsə də, Azərbaycanın müstəqilliyinin ilk illərində bərpa edilərək əhalinin ibadəti üçün istifadəyə verilib.



XVIII əsrin memarlıq abidəsi olan Gürcülü türbəsi Qubadlı rayonunun memarlıq incilərindən sayılır. Bir sıra xüsusiyyətlərinə görə Azərbaycanın səkkizguşəli türbələri arasında unikallığı ilə diqqəti cəlb edir.

Sarıbulaq, Paşa bulağı, Şirin bulaq, Məşədi Allahverdi bulağı insanların da çox ziyarət etdiyi yerlərdəndir. Məsələn, Sarıbulağın suyundan sarılıq xəstəliyinin müalicəsində istifadə olunur.

Qubadlının çox guşələri yaşıl turizm üçün əhəmiyyətlidir. Bərgüşad çayı boyunca Gorus rayonuna qədər kəndlərimiz meşəlik zonada yerləşir. Seytas, Qayalı, Qədili, Təmir Müskanlı, Eyvazlı kəndlərinin əsrarəngiz mənzərələri var. Kənd yaşıl turizm həvəskarlarının bu yerlərə səyahətini təşkil etmək çox faydalı olacaq.

Qubadlıda meşə zonalarının, çayların mövcudluğu çadır turizminin inkişafına da imkan yaradacaq. Eyni zamanda, burada toxunan xalçaları, ipək məhsullarını da turistlərə hədiyyə etməklə onlarda rayon haqqında təsəvvürü genişləndirmək mümkündür.

İnanırıq ki, dövlət başçımızın turizmə göstərdiyi qayğı nəticəsində Qubadlıda da turizm sahəsi inkişaf edəcək, bu rayon turistlərin ən çox səyahət etdiyi bölgələrdən birinə çevriləcək.

**_Eldəniz SƏFƏROV,_**
**_"Qlobus" Turizm Şirkətinin baş direktoru_**



Xalq qəzeti.- 2021.- 31 oktyabr.- S.6.